

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

**Sayı: 125 (21.535)**

*10 iyul 2016-cı il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Varşavada Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşüb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Münaqişənin danışıqlar yolu ilə həllinin məqsədəuyğunluğu bildirilib. Fransa Prezidenti bu məsələnin həllinə fəal dəstək verəcəyini vurğulayıb.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin mövcud vəziyyəti və perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

* * *

İyulun 9-da Varşavada NATO Sammiti çərçivəsində "Dövlət və hökumət başçıları səviyyəsində "Qətiyyətli dəstək" missiyası çərçivəsində aparılan əməliyyatlarda iştirak edən tərəfdaş dövlətlərlə Əfqanıstan üzrə görüş" keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əfqanıstanda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində dünya birliyinin irəli sürdüyü təşəbbüslərə Azərbaycan da öz dəstəyini verir. Ölkəmiz Əfqanıstana sülhməramlı qüvvələrimizin orada təmsil olunması, müəyyən təlimlərin keçirilməsi ilə və digər müxtəlif proseslərdə dəstək göstərir.




## Ə.Ə.Həsənova "Əməkdar dövlət qulluqçusu" fəxri adının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Əli Əkbər oğlu Həsənova **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** — **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 iyul 2016-cı il*

# "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfrans keçirilmişdir





İyulun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq "Naxçıvan" Universitetində "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov beynəlxalq konfransın öz işinə başlaması münasibətilə konfrans iştirakçılarını təbrik etmiş, qonaqları salamlayaraq demişdir: Hər bir xalqın qədimliyi onun tarixində, tarix isə mənbələrdə və abidələrdə yaşayır. Naxçıvan torpağı Azərbaycan xalqının tarixini yaşadan abidələrlə zəngindir. Muxtar respublika ərazisində 1200-dən çox tarixi abidə mövcuddur ki, onların da yarıdan çoxu dünya və ölkə əhəmiyyətli abidələrdir. Abidələr o vaxt tarixin predmetinə çevrilir ki, tədqiq olunsun və yaşadılsın. 1996-cı ildə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" simpoziumu Naxçıvan abidələrinin elmi və real mənbələr əsasında öyrənilməsinin əsasını qoymuş, bu sahədə yeni istiqamətlər və vəzifələr müəyyənləşdirmişdir. Hələ o vaxt qarşıya qoyulan vəzifələrdən biri də qəhrəmanlıq və mədəniyyət tariximizi özündə yaşadan qalaların öyrənilməsi idi.

Ali Məclisin Sədri demişdir: Bu gün qalalar barədə tədqiqatların aparılması tariximizin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qalalar təkcə sığınacaq yeri, mühafizə və ya müdafiə tikilisi deyil. Qalalar – bu ərazidə yaşayan əcdadlarımızın həyat tərzini, dini inanclarını, dövlətçilik ənənələrini, mədəniyyətini və memarlıq sənətini özündə yaşadan mədəniyyət nümunələridir. Əsrlər boyu xalqlar yaşadıqları yerlərdə qalalar tikiblər. Qalalar bütün hallarda xalqların öz daxili tələbatının, hərbi və iqtisadi qüdrətinin nəticəsi olaraq meydana çıxıbdır. Azərbaycan, eləcə də Naxçıvan qalaları da belə bir tarixi yol keçibdir. Ümummilli liderimiz Heydər Əliyev də Naxçıvan qalalarının əhəmiyyətini vurğulayaraq deyirdi ki, ***"Əlincəqala və bir çox belə abidələr Naxçıvanın qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdığını göstərir".***

Qeyd olunmuşdur ki, son tədqiqatların nəticəsi olaraq Naxçıvan ərazisində 80-ə yaxın qala müəyyənləşdirilmişdir. Müdafiə istehkamı olan Oğlanqala, Qız qalası, Qazançı qalası, Əlincəqala, Naxçıvanqala, Çalxanqala və digər qalalar strateji cəhətdən olduqca əlverişli mövqedə tikilmiş, yadelli hücumlarının qarşısının alınmasında mühüm rol oynamışdır. Naxçıvan qalaları ilkin yaşayış yerləri, mədəniyyət və sənətkarlıq mərkəzləri kimi diqqəti cəlb edir. Onlar şəhərsalma mədəniyyətinin mühüm elementi kimi də böyük dəyərə malikdir. Naxçıvan qalaları memarlıq quruluşuna görə də seçilirlər. İstər inşaat texnikasının yüksək səviyyəsinə, istərsə də planlaşma-məkan quruluşuna görə Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalalarımız bu gün təkcə tarixilik baxımından deyil, həm də müasir memarlıq sənətinin inkişafı baxımından da tədqiq olunmalı və öyrənilməlidir. Bütün bunlar "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzusunda keçirilən beynəlxalq konfransın böyük elmi, mədəni və tarixi əhəmiyyətə malik olduğunu göstərir. Naxçıvan qalalarının öyrənilməsi Naxçıvan tarixinin və bununla yanaşı, Azərbaycan tarixinin də öyrənilməsinə mühüm töhfədir.

Ali Məclisin Sədri beynəlxalq konfransda əldə olunan nəticələrin elmimiz üçün faydalı olacağına inamını ifadə etmiş, konfransa uğurlar arzulamışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə çıxış edərək demişdir ki, Naxçıvanın qədim tarixi və müasir sosial-iqtisadi inkişafı alim və tədqiqatçıların qarşısında mühüm vəzifələr qoyur, yeni mövzular müəyyənləşdirilir. Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasının institutlarının, xüsusən Naxçıvan Bölməsinin alimlərinin apardıqları ardıcıl elmi axtarışlar Naxçıvanın tarixinin ən dərin qatlarının açılmasına zəmin yaratmış, dəyərli elmi ədəbiyyatlar hazırlanmışdır. Üççildlik "Naxçıvan tarixi" kitabı da azərbaycanşünaslığa dəyərli töhfə olmaqla yanaşı, Naxçıvan tarixinin öyrənilməsinə xidmət edən ensiklopedik nəşrdir. Naxçıvan ölkəmizin ən qədim dövlətçilik mərkəzlərindən biri olmuşdur. Qədim Azərbaycan torpağı olan Naxçıvanda tarixən güclü dövlətlər mövcud olmuş, xalqımızın qədim dövlətçilik və mübarizlik rəmzinə çevrilən abidələr, qala-şəhərlər yaranmışdır. Bu mənada "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfransın keçirilməsi Azərbaycanda ictimai və humanitar elmlərin inkişafı baxımından faydalı olmaqla yanaşı, həm də xalqımızın vətənpərvərlik ənənələrinin və qəhrəmanlıq tarixinin təbliği baxımından mühüm addımdır.

Konfransda Türkiyənin İstanbul Universitetinin müəllimi, tarix üzrə elmlər doktoru Oktay Belli "Tunc və Erkən Dəmir dövründə Şərqi Anadolu və Naxçıvan qalaları arasında oxşarlıq" mövzusunda çıxış edərək demişdir: Naxçıvan dünya əhəmiyyətli abidələrlə zəngin bir diyardır. Son illər Naxçıvanda qədim tarixi abidələrin, xüsusilə qalaların bərpa olunması bu ərazidəki zəngin mədəni irsi qorumaqla yanaşı, həm də bəşəriyyət tarixinin öyrənilməsinə xidmət edir. Keçmişlə gələcək arasında körpü yaradan Naxçıvan qalaları türklərin mübarizlik və qəhrəmanlıq tarixindən soraq verir. Şərqi Anadoluda və Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan qalalar, tapılan maddi-mədəniyyət nümunələri bir daha təsdiq etdi ki, hər iki ərazidə mövcud olan qalalar eyni tikinti xüsusiyyətlərinə malikdir. Lakin Tunc və Erkən Dəmir dövründə əcdadlarımız tərəfindən yaradılan ən möhtəşəm qalalar Naxçıvan ərazisindədir. "Naxçıvan qalaları: tarixdə və günümüzdə" beynəlxalq konfransı Naxçıvan qalalarının öyrənilməsində birgə səylərin göstərilməsinə imkan verəcəkdir.

Amerika Birləşmiş Ştatlarının Emori Universitetinin professoru Hillari Qopnik "Şərur vadisinin Son Tunc dövrü qalaları" mövzusunda çıxış edərək demişdir: ABŞ-Azərbaycan layihəsi 2008-ci ildən etibarən Şərur vadisində həyata keçirilir. İlk dörd ildə işimiz üç əsas dövrün qalıqlarına rast gəldiyimiz Oğlanqala təpəsində aparılmışdır. 2013-cü ildən etibarən Qız qalası təpəsi yaxınlığında, Orta Tunc və Erkən Dəmir dövrünə aid yataqlarda qazıntı işləri aparırıq. Ərazidə Orta Tunc dövrünə aid kurqanlar, böyük ölçülü memarlıq abidələri və Son Tunc dövrünə aid qala aşkar edilmişdir. Bu da Naxçıvandakı yüksək mədəniyyəti nümayiş etdirir. Qeyd olunan məsələlərin "Naxçıvan qalaları: tarixdə və

*Ardı 2-ci səhifədə*

günümüzdə" beynəlxalq konfransı üçün faydalı olacağına inanır və gələcəkdə Naxçıvandakı qədim insan icmalarına aid daha çox nümunələr aşkarlamağa ümid edirik. Hillari Qopnik tarixə və arxeologiyaya göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Naxçıvan qalaları: dövrləri və xarakterləri" barədə çıxış edərək demişdir ki, Naxçıvan antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Bu abidələrin içərisində qalaların özünəməxsus yeri vardır. Naxçıvan qalaları başlıca olaraq müdafiə, sonralar dini, ticarət, sənətkarlıq məqsədilə istifadə edilmişdir. Tarixin sonrakı dövrlərində də Naxçıvan qalaları ölkəmizin ictimai-siyasi və mədəni həyatında fəal rol oynamışdır. Bu gün Naxçıvan Muxtar Respublikasının tarix və mədəniyyət abidələri özlərinin ikinci həyatını yaşayır. Bu abidələr heç vaxt indiki qədər diqqət və qayğı ilə əhatə olunmamış, xalqımıza tanıdılmamış, təbliğ olunmamışdır. Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tarixi-mədəni irsimizə göstərdiyi diqqət və qayğının ifadəsidir. İsmayıl Hacıyev muxtar respublikanın tarixinə və mədəniyyətinə göstərilən diqqətə görə muxtar respublikanın ziyalıları və beynəlxalq konfransın iştirakçıları adından minnətdarlıq etmişdir.

Sonra konfrans iştirakçıları Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Naxçıvan qalaları" sənədli televiziya filminə baxmışlar.

Beynəlxalq konfransın plenar iclası "nakhchivan.az" internet saytında canlı yayımlanmışdır.

Beynəlxalq konfrans iyulun 10-da Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində öz işini davam etdirəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## *"Naxçıvan qalaları: tarixdə və günümüzdə"* beynəlxalq konfransın iştirakçıları muxtar respublikamızın mədəniyyət müəssisələri və möhtəşəm tarixi abidələri ilə tanış olublar

***İyulun 8-də "Naxçıvan qalaları: tarixdə və günümüzdə" beynəlxalq konfransın iştirakçıları Naxçıvan Muxtar Respublikasının mədəniyyət müəssisələri, "Gülüstan" türbəsi və Əlincəqala ilə tanış olublar.***





Əvvəlcə qonaqlar ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Sonra beynəlxalq konfransın iştirakçıları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olublar. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Tarixin bütün dövrlərində bu qədim diyarda zəngin mədəniyyət və memarlıq nümunələri yaradılıb. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. Qala yalnız müdafiə məqsədi daşımayıb, eyni zamanda burada formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilib.

2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb. Muzeydə eramızdan əvvəl V-VIII minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyimlər nümayiş etdirilir.

Beynəlxalq konfransın iştirakçıları "Əlincəqala" muzeyi və tarixi abidəsi ilə də tanış olublar.

Məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 14 fevral 2014-cü ildə "Culfa rayonundakı Əlincəqala tarixi abidəsinin bərpa olunması haqqında" Sərəncam imzalayıb. Sərəncamın icrasına uyğun olaraq, Əlincəqala tarixilik və orijinallıq saxlanılmaqla yüksək səviyyədə bərpa olunub.

Bildirilib ki, muzey binası 2 iş otağı və ekspozisiya zalından ibarətdir. Ekspozisiya zalında ümummilli lider Heydər Əliyevin ***"Əlincəqala və bir çox belə abidələr Naxçıvanın qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdığını göstərir"*** fikri, Əlincəqalada məskunlaşan insanların həyat tərzini əks etdirən maddi-mədəniyyət nümunələri, xüsusilə qədim məişət əşyaları, qalada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi nümunələr, Naxçıvanın və Əlincəqalanın tarixi ilə bağlı yazılmış kitablar, qəzet məqalələri, qalanın bərpadan əvvəl, bərpa zamanı və bərpadan sonrakı fotoşəkilləri nümayiş etdirilir. Buradakı saxsı qab və çıraqlar, Əlincəqala ərazisindən aşkar olunmuş boyalı keramika parçaları Azərbaycanda sənətkarlıq ənənələrinin qədim dövrlərdən formalaşdığını göstərən nadir eksponatlar kimi böyük əhəmiyyətə malikdir. Bütün bunlar həm də xalqımızın orta əsrlər dövrünə aid məişət mədəniyyəti haqqında dolğun təəssürat yaradır.

Qeyd olunub ki, bərpa işləri zamanı qalanın tarixiliyi qorunub saxlanılıb. Qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunub. Qalanın zirvəsinə doğru yol çəkilib, qala ərazisində işıqlandırma sistemləri yaradılıb, oturacaqlar qoyulub, yaşıllıqlar salınıb. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. Qalanın zirvəsinə gedən yolda daş üzərində həkk olunan "Tarixi yaşadanları tarix də yaşadacaqdır" fikri Əlincəqalanın bərpasının xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını bir daha təsdiq edir.

Bu gün Əlincəqalanın zirvəsində Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, dövlətçiliyinin rəmzi olan üçrəngli bayrağımız dalğalanır.

Sonra qonaqlar bərpa edilən Gülüstan türbəsinə baxıblar.

Məlumat verilib ki, Gülüstan türbəsi dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən biridir. Memarlıq-konstruktiv quruluşuna görə türbətipli digər memarlıq abidələrindən fərqlənən Gülüstan türbəsi orta əsr Azərbaycan memarlıq abidələri içərisində özünəməxsus yer tutur. Gülüstan türbəsinin sərdabəsi kürsülük adlanan yerüstü hissədə yerləşir. Kürsülük xaricdən kəsik piramida, daxildən isə silindrik quruluşa malikdir. Planda kvadrat olan kəsik piramida yuxarıda düzgün onikibucaqlıya çevrilir. Onun üzərində isə onikiüzlü üst kamera yerləşir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə və dekorativ tağlarla bəzədilib. Naxçıvan memarlıq məktəbinə məxsus digər türbələrdə olduğu kimi, Gülüstan türbəsində də taxçaların içərisi incə həndəsi ornamentlərlə örtülüb.

Gülüstan türbəsi ətrafındakı abidələrdən əldə olunmuş arxeoloji materiallar, xüsusən də keramika nümunələri, tikili qalıqları istər yaşayış yerinin tarixinin müəyyənləşdirilməsi, istərsə də türbə ilə bağlı elmi araşdırmaların daha dərindən aparılması baxımından mühüm əhəmiyyət kəsb edir. Türbə öz zərifliyi, incə memarlıq üslubu və xüsusiyyətləri ilə bu gün olduğu kimi, gələcəkdə də dəyərini qoruyub saxlayacaqdır. Abidənin yerləşdiyi ərazinin tarixi və mədəni əhəmiyyəti nəzərə alınaraq burada "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

Abidənin ətrafında abadlıq işləri aparılıb, işçilər üçün inzibati bina tikilib, yaşıllıqlar salınıb.

**✍ Rauf ƏLİYEV**

## Naxçıvan şəhərinin yeni quruculuq ünvanları

***Naxçıvan şəhərində hər il genişmiqyaslı tikinti-quruculuq işlərinin aparılması, abadlıq tədbirlərinin həyata keçirilməsi muxtar respublika paytaxtının simasını tanınmaz dərəcədə dəyişdirib, şəhər Avropa və Şərq memarlığı ənənələrinin yaşadıldığı bir paytaxta çevrilib. Bu tədbirlər qədim şəhərin gözəlliyini artırmaqla yanaşı, insanların rahat şəraitdə yaşamasına və işləməsinə, asudə vaxtlarının səmərəli keçirilməsinə də zəmin yaradıb. Tikinti-quruculuq tədbirləri həyata keçirilərkən şəhərin qədimliyinin, milli memarlıq üslubunun qorunmasına ciddi fikir verilməsi paytaxta əsrarəngiz gözəllik bəxş edib. Cari ilin ötən dövrü ərzində də şəhərin bir neçə ünvanında tikinti-quruculuq tədbirlərinə başlanılıb, yeni-yeni binalar istifadəyə verilib.***

Hazırda Cəlil Məmmədquluzadə küçəsində Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üçün yeni bina inşa edilir. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikilən bina zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarətdir. Binanın qəlib-beton işləri başa çatdırılıb, hörgü işləri yekunlaşdırılıb, kommunikasiya xətləri çəkilib. Hazırda fasadın və interyerin suvanması işləri aparılır, çardaq vurulur, zirzəmi hissənin döşəməsinə üzlük daş döşənir. Yeni binada hər cür şəraitə malik iş otaqları, qurumun əhatə etdiyi sahələrə aid fondlar, mətbəə, arxiv, server otağı, 10 min ədəd kitab üçün nəzərdə tutulmuş elmi kitabxana, laboratoriya, 108 yerlik iclas zalı yaradılacaq, binanı qış aylarında fasiləsiz istiliklə təmin etmək üçün fərdi qazanxana quraşdırılacaq.

Muxtar respublikada ali təhsil müəssisələri üçün yeni-yeni binaların istifadəyə verilməsi ənənə halını alıb. Son illərdə Naxçıvan Müəllimlər İnstitutunun da fəaliyyəti genişləndirilib, ali təhsil ocağının binası yenidən qurulub. Bu tədbirlərin davamı olaraq Naxçıvan Müəllimlər İnstitutu üçün yeni korpus inşa edilir. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən ucaldılan bina zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olacaq. Obyektin iş icraçısı Şahin Əliyevin bildirdiyinə görə, binanın zirzəmisində və ilk iki mərtəbəsində qəlib-beton işləri başa çatdırılıb.

Əhalinin mənzil şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər üç mərhələdə aparılır. İlk növbədə, qayğıya ehtiyacı olan vətəndaşlar mənzil və fərdi yaşayış evləri ilə təmin olunur. İkinci mərhələdə mövcud yaşayış binaları yenidən qurularaq sakinlərin istifadəsinə verilir. Üçüncü mərhələdə isə qəzalı vəziyyətdə olan yaşayış binaları sökülərək yerində daha müasir yaşayış binaları tikilir. Həyata keçirilən bu tədbirlər dövlətimizin vətəndaşlara göstərdiyi qayğının parlaq ifadəsidir. Naxçıvan şəhərinin "İstiqlal" küçəsindəki 99 nömrəli, 36 mənzilli binanın yenidən qurulmasını da bu tədbirlərin davamı kimi dəyərləndirmək olar.

Yenidən qurulması "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarına həvalə edilən binada hazırda daş üzləmə, fasadın suvanması və dizaynı işləri gedir. İlkin mərhələdə binanın qəzalı vəziyyətdə olan eyvanları və sonradan artırılan hissələri sökülüb, sonrakı mərhələdə bina beton sütunlarla möhkəmləndirilib, dam örtüyü, pəncərələr dəyişdirilib, bina arxaya doğru 3 metrlik məsafədə artırılıb. Bu da bina sakinlərinin mənzil sahəsinin genişlənməsinə şərait yaradıb. Binanın su-kanalizasiya, qaz və elektrik xətləri də tamamilə yenilənib. Bundan başqa, binanın zirzəmisi də dərinləşdirilərək təmir olunub, yararlı vəziyyətə salınıb.

Şəhərin Cəlil Məmmədquluzadə küçəsində tikilən daha bir obyektin inşası isə şəhərimizin turizm imkanlarının artırılmasına xidmət edəcək. Belə ki, adıçəkilən ünvanda "Dizayn" MMC-nin inşaatçıları tərəfindən Şərq memarlığı ənənələri əsasında yeni otel və ticarət mərkəzi inşa edilir. Obyektin iş icraçısı Mahir Əliyevin bildirdiyinə görə, bina zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət olacaq. Binanın üçüncü mərtəbəsi mansard formasında inşa ediləcək. Birinci mərtəbədə hədiyyəlik əşya mağazaları, ikinci mərtəbədə isə mehmanxana fəaliyyət göstərəcək. Binanın şəhərə baxan istiqamətində gözəl arxitekturaya malik saat qülləsi yaradılacaq. Saat qülləsi altı mərtəbədən ibarət olacaq. Burada hər mərtəbədə kafelər fəaliyyət göstərəcək. Otel və ticarət mərkəzinin ərazisinə müxtəlif istiqamətlərdən daxil olmaq mümkün olacaq. Mərkəzin ərazisində müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün səhnə yaradılacaq, həmçinin burada kino zalı fəaliyyət göstərəcək, ərazidə yaşıllıqlar salınacaq, müasir işıqlandırma sistemləri quraşdırılacaq. Hazırda inşaatçılar saat qülləsində qəlib-beton işləri ilə məşğul olur, binanın daxilinə suvaq çəkirlər.

**✍ Səbuhi HÜSEYNOV**









## Heydər Əliyev adına tam orta məktəb ölkəmizin qabaqcıl təhsil ocaqlarından biridir



*Müasir Azərbaycanın ən yeni tarixinin bütün parlaq səhifələri xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin dövlət müstəqilliyi möhkəmləndikcə ulu öndərdən Azərbaycanın gələcəyinə miras qalmış əsərlərin dəyəri daha aydın görünür. Ümummilli liderimizin xalqımıza ən dəyərli mirası olan Azərbaycançılıq məktəbinin etibarlı davamçılarının hazırlanması isə müasir təhsilimiz qarşısında duran əsas vəzifələrdəndir. Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəb də öz ölkəsinə, xalqına faydalı olmağı, fədakar xidmətlər göstərməyi qarşısına məqsəd qoymuş gənclər yetişdirərək ulu öndərimizin adına layiq fəaliyyət göstərir.*



Heydər Əliyev adına tam orta məktəb öz uğurları ilə ölkəmizdə yaxşı tanınan təhsil ocaqlarındandır. 2004-cü ildə ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə açılışından keçən müddət ərzində məktəb öz uğurlu nəticələri ilə həmişə ön sıralarda olmaqla bu etimada layiq olduğunu sübut etmişdir. Ulu öndərin adını daşıyan məktəb gözəl ənənələrə sahibdir. Bu təhsil ocağına qədəm qoyduqda, ilk olaraq, məktəbin həyətindəki gül-çiçəkli geniş ərazidə ucalan ümummilli liderimiz Heydər Əliyevin abidəsi diqqəti cəlb edir. Bu müqəddəs məkan hər il birinci siniflərin məktəbə gəldiyi ilk gün və məzunların məktəblə vidalaşıb Heydər Əliyev yoluna sədaqətlə xidmət edəcəklərinə and içərək müstəqil həyata qədəm qoyduqları son gün kimi yadda qalır. Ulu öndərin həyat və fəaliyyəti haqqında məktəbin foyesində, bütün mərtəbələrində nəfis şəkildə yaradılmış fotostend və guşələr çox diqqətçəkicidir.

Heydər Əliyev adına tam orta məktəb qabaqcıl təhsil mərkəzidir. Məktəbin yaradılmasının 10 illiyi münasibətilə keçirilən yubiley tədbirində çıxış edən Ali Məclis Sədrinin dediyi kimi: ***"Ümummilli liderimizin adını daşıyan məktəbdə təhsil almaq böyük şərəf, şagirdlərə elmin sirlərini öyrətmək isə bununla yanaşı, həm də böyük məsuliyyətdir".*** Pedaqoji kollektiv və şagirdlər bilirlər ki, ulu öndər Heydər Əliyevin adını daşıyan məktəbdə təhsil almaq, burada işləmək nə qədər məsuliyyətli olsa da, bir o qədər də qürurvericidir. Həyatını öz xalqına həsr edərək milyonların qəlbində əbədi yer tutmuş ümummilli liderin davamçılarını yetişdirmək həm ciddi, həm də şərəfli vəzifədir.

Heydər Əliyev adına tam orta məktəbdə tədrisin təşkili ilə bağlı qarşıya qoyulmuş vəzifələr pedaqoji kollektiv tərəfindən uğurla icra olunur. Məktəbdə tədrisə, təlim və tərbiyəyə kompleks yanaşma, pedaqoji kollektivin ixtisasının artırılmasına yönəlmiş tədbirlər, yüksək nizam-intizam məktəb kollektivinə uğur qazandıran əsas amillərdəndir.

Heydər Əliyev adına tam orta məktəbin maddi-texniki bazası ilbəil genişləndirilir. Hazırda bu təhsil ocağında 5-i elektron lövhəli olmaqla, 61 sinif otağı, 3 kompüter otağı, kimya, biologiya və fizika laboratoriyaları, kitabxana, hərbi kabinə, 2 şahmat sinfi və müəllimlər otağı, emalatxana və idman zalı var. Şagirdlərin təlim-tərbiyəsi ilə 105 müəllim məşğul olur. Məktəbin kompüter otaqlarında 57 kompüter dəsti quraşdırılmış, internetə çıxış təmin olunmuşdur. Həmçinin elektron lövhəli siniflərdə və laboratoriyalarda da müasir tədris imkanları yaradılmışdır. Məktəbin kitabxana fondunda 16 mindən çox dərslik və bədii ədəbiyyat vardır.

Təhsil ocağının uğurlarına gəldikdə, hazırda o, ölkəmiz üzrə ən yaxşı şəhər məktəbləri sırasındadır. Məktəb hələ 2007-2008-ci tədris ilində "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmuşdur. Yaradıldığı 2004-cü ildən bəri məktəbi bitirən məzunlardan 364 nəfəri ali məktəblərə, 63 nəfəri ali hərbi, xüsusi təyinatlı ali məktəblərə və Heydər Əliyev adına Hərbi Liseyə, eləcə də orta ixtisas təhsili müəssisələrinə qəbul olunmuşdur. Məktəbin məzunu olan Tayfur Əliyev boks üzrə Avropa çempionu, birinci Avropa Oyunlarının bürünc mükafatçısıdır. Bu ənənələr indi də davam etdirilir. Ötən tədris ilində məktəbin şagirdlərindən Aqil Musayev boks üzrə Azərbaycan çempionu adını qazanmışdır. XI sinif şagirdi Abbas Abbasov Azərbaycan Respublikası üzrə keçirilən fənn olimpiadasında coğrafiya fənni üzrə birinci yeri tutmuşdur.

2014-2015-ci tədris ilində məktəbi bitirən məzunlardan 64 nəfər ali məktəblərə qəbul olunmuş, onlardan 15-i imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 intervalında bal toplamışdır. Bir nəfər məzun isə qızıl medala layiq görülmüşdür. Builki məzunlar da ümidvericidirlər. İnanırıq ki, bu il də onlar öz yüksək nəticələri ilə bizi sevindirəcəklər.

Məktəbin kollektivi ictimai işlərdə də öz fəallığı ilə seçilir. Təhsil ocağının müəllimləri Yeni Azərbaycan Partiyasının fəal üzvləri, ümummilli liderin ideyalarının təbliğatçısıdırlar. Çox fəxrli haldır ki, Heydər Əliyev adına tam orta məktəbin pedaqoji kollektivində 8 nəfər "Əməkdar müəllim" fəxri adına, 4 nəfər isə "Tərəqqi" medalına layiq görülən müəllim vardır. 2009-cu ildə isə bir nəfər "İlin ən yaxşı müəllimi" adına layiq görülmüşdür.

*Ulu öndərimiz Heydər Əliyev həmişə öz xalqına xidmət etmişdir. O, bütün azərbaycanlıların yaddaşında yüksək intellektli, vətənpərvər, millətini hər şeydən uca tutmağı bacaran dahi kimi qalmışdır. Onun müəyyənləşdirdiyi yol bu gün də davam etdirilir. Həyatını xalqının taleyinə bağlayan hər bir insan ulu öndər yolunun davamçısıdır. Bu gün Heydər Əliyev adına tam orta məktəbdə çalışan hər bir pedaqoq, təhsil alan hər bir şagird də çalışır ki, dahi şəxsiyyətin adına layiq olsun. Çünki bu, Vətənə, xalqa xidmət yoludur.*

**Şəlalə CABBAROVA**
***Heydər Əliyev adına tam orta məktəbin müəllimi***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamı muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişini təmin edib. Sərəncama uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının məşqçi-müəllimləri, idmançıları da muzeylərimizi ziyarət edirlər.*

## Muzey ziyarətləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Boks Federasiyasının üzvləri Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev Muzeyində, Güləş Federasiyasının üzvləri "Əlincəqala" tarixi abidəsi və muzeyində, Basketbol Federasiyasının üzvləri isə Bəhruz Kəngərli Muzeyində olublar.

Heydər Əliyev Muzeyində idmançılara məlumat verilib ki, bu muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılıb və 10 may 1999-cu ildə fəaliyyətə başlayıb. Muzeydə nümayiş etdirilən eksponatlar ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, görkəmli dövlət xadiminin istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ümummilli liderimizin təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir. Həmin materiallar ulu öndərimizin dövlətçilik və siyasi fəaliyyətinin öyrənilməsində, dahi rəhbərin mənalı həyatı, zəngin və çoxşaxəli ömür yolu barədə faktların gənc nəslə çatdırılmasında böyük rol oynayır.

Güləş Federasiyasının idmançıları və məşqçiləri "Əlincəqala" tarixi abidəsi və muzeyində olublar. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən "Əlincəqala" tarixi abidəsi bərpa edilib və muzeyi yaradılıb. İyunun 17-də "Əlincəqala" tarixi abidəsi və muzeyinin açılışı olub.

Bəhruz Kəngərli Muzeyini ziyarət edən Basketbol Federasiyasının üzvlərinə muzey haqqında ətraflı məlumat verilərək bildirilib ki, görkəmli rəssam Bəhruz Kəngərli Azərbaycan realist rəssamlığının banisi və əvəzolunmaz nümayəndəsi, istedadlı fırça ustası kimi xatırlanır. Onun çəkdiyi qiymətli rəsm əsərləri Azərbaycan incəsənətinə yeni iz gətirərək realist rəssamlığın əsasını qoyub. Rəssam ömrü boyu doğma Vətəninin gözəlliklərini öz əsərlərində tərənnüm edib.

Qeyd edək ki, muzeyləri 100-dən çox idmançı ziyarət edib.

**Ceyhun MƏMMƏDOV**

## Uşaqların asudə vaxtı səmərəli təşkil olunur

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nda muxtar respublikanın bir sıra nazirlikləri, komitələri, idarələri qarşısında mühüm vəzifələr qoyulub, sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının səmərəli təşkili üçün məqsədyönlü tədbirlərin keçirilməsi nəzərdə tutulub.***





Belə ki, proqramda bu qəbildən olan uşaqların təhsili, təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili, distant dərslərin keçilməsi, onların idman məktəblərinə və məktəbdənkənar müəssisələrə cəlbi, istedadlarının üzə çıxarılması, cəmiyyətə inteqrasiyası kimi mühüm məsələlər öz əksini tapıb. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud olan 825 uşaq təhsil alır ki, onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Xüsusi qayğıya ehtiyacı olan uşaqların bir qrupu valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, eləcə də aztəminatlı ailələrin uşaqlarıdır.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən növbəti tədbirdə bu qəbildən olan 70-ə yaxın uşaq iştirak edib.

Uşaqlar əvvəlcə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət ediblər. Hazırda 4600-dən çox eksponatın mühafizə olunduğu muzeydə uşaqlara ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında geniş məlumat verilib.

Sonra uşaqlar Naxçıvan Dövlət Xalça Muzeyində olublar. Burada onlara məlumat verilib ki, Naxçıvan xalçaçılıq məktəbinin bərpası və öyrənilməsi üçün 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi yaradılaraq fəaliyyətə başlayıb, 2010-cu ildə muzey yeni bina ilə təmin olunub. Qeyd edilib ki, 2013-cü ildə muzeydə yenidənqurma işləri aparılıb.

Daha sonra uşaqlar Naxçıvan Dövlət Film Fondunda "Qaraca qız" bədii filminə baxıblar. Filmin nümayişindən əvvəl Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov çıxış edərək bildirib ki, qrafikə uyğun olaraq qarşıdakı günlərdə uşaqlar "Bir qalanın sirri", "Sehrli xalat" bədii filmlərinə baxa biləcəklər. Uşaqlara Azərbaycan uşaq kinosunun inkişaf tarixindən, cizgi filmlərimizin çəkilməsindən də söhbət açılıb.

Sonra uşaqlar tanınmış rejissor Şamil Mahmudbəyovun 1966-cı ildə sevimli yazıçımız Süleyman Sani Axundovun "Qaraca qız" povestinin motivləri əsasında ekranlaşdırdığı eyniadlı filmə baxıblar.

**Əli RZAYEV**

# Naxçıvan tarixi abidələr diyarıdır

**Ulu öndər Heydər ƏLİYEV:** *Naxçıvan ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir. Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir.*



Əlincəqala



Nuh türbəsi

## QALALAR yaraşır yurduma mənim...

***"Hücum edin bu diyara, viran edin bu şəhəri, bu evləri, məscidləri, sarayları! Qoy dağılsın el-obalar, abad evlər, xanimanlar. Əsir olsun bu torpağın dəmir qollu igidləri, əsir olsun bu diyarın ağsaqqalı, ağbirçəyi, qız-gəlini, gözəlləri, göyçəkləri. Oda verin, kül eyləyin tarlaları, zəmiləri, asın uca ağaclardan alp ərləri, ərənləri..."***

Belə olub hər dövrdə bu torpağa göz dikənin, hökmdarın, sərkərdənin övladına nəsihəti, vəsiyyəti. Belə olub yağıların, yad ellərdən yürüş edən orduların yurd-yuvamçün bəd niyyəti. Ancaq igid oğullar yağı düşmən qarşısında boş durmayıb, misri qılınc öz qınında pas atmayıb. Yerlər, göylər titrəyəndə igidlərin nərəsindən, od çıxanda köhlənlərin nəfəsindən düşmən bilib kimlər durub qalaların zirvəsində. Buludların kölgəsində məskən tutan bu qalalar igidimə həyan olub, yadellilər qarşısında sədd tək durub. Qara daşlar töküləndə uca dağlar yamacından, iti oxlar süzüləndə ərənlərin kamanından mat qalıbdı hökmdarlar, sərkərdələr. Bundan sonra başlayıbdı mühasirə, boş hədələr. Ancaq məğrur igidlərim mətinliklə sinə gərib qorxulara, hədələrə, inanmayıb ölüm qoxan boş sözlərə, boş vədlərə. Bu minvalla min illərlə yaşayıbdı yurdum mənim, qalalarda həyat tapıb, xilas olub xalqım mənim. Millətimin izi vardır mayasında qalaların, vəsiyyəti, sözü vardır hər daşında-qayasında qalaların.

Vaxt olub ki, unutdurmaq istəyiblər mənə şanlı tariximi, unutdurmaq istəyiblər dünənimi, keçmişimi. Şər qüvvələr, "yıxın tökün qalaları, unutdurun bu millətə dünənindən qalanları", – deyib durub. Qalaları uçurmaqçün, məni ulu keçmişimdən uzaq, fəraq salmaq üçün minbir hiylə, plan qurub. Bax beləcə unudulub daş tarixim, daş yaddaşım, gələcəyə gedən yolda arxadaşım, yol yoldaşım. Tənha qalıb, uçulubdu uca bürclər, daş divarlar, bu yerləri məskən edib viranələr, xarabalar.

Nə yaxşı ki çox çəkmədi ulu tariximizə sonsuz kin-küdurətin qaradan-qara əsri, dağıldı ədavətin zülmətdən siyah qəsri. Bu dövrün qurbanına, qaranlıqda mumtək əriyən şama – Cavidimə ucalanda ağ mərmərdən məqbərə artıq hər kəs bildi ki, unudulan tarixin qara günü sonlanıb, intibaha aparan yeni bir dövr başlanıb.

Bax həmin hadisədən indi on illər keçib, şanlı, ulu tarixim yenidən vərəqlənib. Keçmişi yaşatmaqçün, yenidən var olmaqçün yüzlərlə abidəyə yeni həyat verilib. Ucalıb məqbərələr, türbələr, xanimanlar. Saraylar və məscidlər, bir də qədim qalalar.

Bu gün qədim yurdumda əzəmətlə ucalan, zülfü qarlı dağların ətəyində yer alan müqəddəs torpağımda iki qala ucalır – biri Naxçıvanqala, biri isə Əlincə. Bu məğrur qalalarda hilal aylı, ulduzlu bayrağım dalğalanır. Hər biri əcdadımın bizə vəsiyyətidi, mirası, hədiyyəsi, öyüd-nəsihətidi.

**Səbuhi HÜSEYNOV**



Möminə xatın məqbərəsi



Gülüstan türbəsi



Naxçıvanqala



Yusif Küseyir oğlu türbəsi



Ordubad şəhərində Buzxana


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 527